*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2024*
*Səh. 207-216*
https://doi.org/10.62837/2024.2.207

**ÖMƏROVA GÜLSƏRƏN HAMLET QIZI**
**omarova.gulseren@gmail.com**
**Azərbaycan Respublikasının**
**Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası,**
**"Dillər" kafedrası, filologiya üzrə fəlsəfə doktoru, dosent əvəzi**
**Ünvan: Azərbaycan, Bakı, Lermontov küçəsi, 74 AZ 1001**

# XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ KOMMUNİKATİV METODLARIN TƏTBİQİ

**Xülasə**

Ünsiyyət həm fərd, həm də qrup səviyyəsində inkişafın hərəkətverici qüvvəsi kimi həyatımızda mühüm rol oynayır. Ünsiyyət haqqında danışanda ağlımıza gələn ilk fikir – istifadə etdiyimiz dillə baglı olur. Söz, nitq və dil ünsiyət prosesində çox mühüm rol oynayır və istisna olaraq insana aid olan fenomendir. İnsanların öz münasibətini aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsirə ünsiyyət deyilir (Kitabi- Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: "Öndər" nəşriyyatı, 2004, s.116). Ünsiyyət prosesi üç funksiyanı yerinə yetirir: kommunikativ, interaktiv, perseptiv. Qeyd etdiyimiz funksiyalar iki yolla həyata keçirilir. Birincisi söz, dil və nitqdən istifadə etməklə gerçəkləşən verbal davranış adlanır. Ikincisi isə qeyri-verbal davranış adlanır və buraya insanın əl-qol hərəkətləri; səs tonu və digər vokal xüsusiyyətlər o cümlədən nitqin sürəti, tezliyi, intonasiya, pauza; bədən hərəkətləri, bədənin duruş tərzi; sifət cizgiləri, geyim tərzi və s. vasitələr aiddir.

Qlobal dil kimi üstünlük təşkil edən ingilis dilində rabitəli və sürətli danışıq fəaliyyəti sahəsi son zamanlar metodiki ədəbiyyatda ən cox öyrənilən sahədir və bu sahədə yaranan problemlərə marağın artdığı müşahidə olunmaqdadır. İngilis dilinin tədrisində kommunikativ bacarıqların formalaşmasını metodoloji baxımdan təhlil edərkən, bir çox faktorların və metodiki çatışmazlıqların olduğu da görünür. Danışıq fəaliyyəti kommunikasiyanın əsas və vacib komponenti kimi ümumtəhsil müəssisələrinin əsas tələblərindən hesab olunur.

Bu məqalədə müasir dövrdə xarici dillərin, xüsusilə ingilis dilinin tədrisində kommunikativ yanaşma metodunun tətbiqindən danışılmış, bu yanaşmanın səmərəli təşkili yollarının araşdırılması təhlil edilmiş və əsaslandırılmışdır.

**Açar sözlər: innovativ, kommunikativ, qlobal kompüter şəbəkəsi, sertifikatlaşdırma, veb, tolerantlıq, interaktiv, perseptiv.**

Dil beynəlxalq ünsiyyət fəaliyyətinə təsir edən əhəmiyyətli elementlərdən biridir. Tələbələr ingilis dili bacarıqlarının müxəlif hissələrini , məsələn dinləmə, danışma, oxuma və yazma bacarıqları baxımından istifadə edirlər. Bildiyimiz kimi, yaşadığımız əsr kompüter əsri, yaşadığımız dövr isə texnologiya dövrüdür.

Kommunikasiya vasitələri ilə texnologiyalar cəmiyyətin ayrılmaz bir tərkib hissəsidir. Texnologiya həmişə tədris və tədris mühitinin mühüm bir hissəsi olmuşdur. Ən yeni innovativ texnologiyalar informasiya ötürülməsini sürətləndirərək kommunikasiyanı daha yüksək nöqtəyə çatdırıb. Müasir dövrümüzdə təhsil siyasətinin qarşısında duran əsas məqsədlərdən biri cəmiyyətin və dövlətin tələblərinə uyğun təhsil sisteminə nail olmaqdır. Ümumtəhsil müəssisələrinin kompüterlərlə təchiz edilməsi gənclərin virtual aləmə çıxışının təmin olunması, onların informasiya texnologiyaları ilə işləmək vərdişlərinə yiyələnmələri üçün atılan məqsədyönlü addımlar da məhz bu məqsədə xidmət edir. Hazırki dövrdə ən qabaqcıl informasiya texnologiyalarından biri hamı tərəfindən istifadə olunan və müəyyən faydalar verən internetdir.

"İnternet" termini ingilis dilində "İnternet – interconnected netvorks" sözündən götürülmüşdür, mənası "qlobal kompüter şəbəkəsi" deməkdir. İnternet qlobal şəbəkədə birləşmiş milyonlarla kompüterləri, proqramları, verilənlər bazalarını, fayl və insanları birləşdirən şəbəkələrdən ibarət olan şəbəkədir. 1969 –cu il tarixindən etibarən Amerika Birləşmiş Ştatlarında internetin əsası qoyulmuşdur.

Xarici dillərin tədrisində texnologiyanın istifadəsi yeni deyil. 1960-cı illərdən bəri xarici dilin tədrisi praktikasında videolentlər, dil laboratoriyaları və videolar geniş istifadə olunurdu. 1980-ci illərin əvvəllərində xarici dilin kompüter texnologiyaları və materialları ilə tədrisi təcrübəsi tətbiq olunmağa başladı. Tezliklə bu metodlar xarici dillərin tədrisi metodlarına aid edildi. 1990-cı ildə xarici dillərin tədrisi praktikasında informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə şəbəkə vasitələrinə çıxışa çevrildi. 1990-cı illərdə internetin sürətli inkişafı tələbələrin xarici dilləri daha səmərəli şəkildə öyrənməsinə və bilik əldə etməsinə müsbət təsir göstərib. Bu andan etibarən internet xarici dillərin tədrisi praktikasında qeyri-adi bir məlumat əldə etmək mənbəyinə çevrilib. Xarici dillərin tədrisi praktikasında iştirak edən müəllimlər internetdən hər cür məlumat əldə edə bilərlər. İnternetdə demək olar ki, hər suala cavab tapmaq mümkündür. Əksər müəllimlər internet resurslarından istifadə edərək çox şey əldə edə biləcəklərinə inanırlar. İnternet məlumat əldə etmək, bilikləri bərpa etmək və ya digər ölkələrdən olan müəllimlərlə təcrübə mübadiləsi aparmaq yolu kimi istifadə olunur. İnternetin köməyi ilə müəllimlərin ixtisasının artırılmasına nail olunur, internetdə müəllimin dil biliyi və ustalıq səviyyəsini yoxlayan və təsdiqləyən hər cür test və sertifikatlaşdırma mövcuddur. Müəllimlər bu vasitələrdən çox rahatlıqla istifadə edə bilərlər.

Son illərdə ali məktəblərdə yeni informasiya texnologiyalarının istifadəsi məsələsi getdikcə daha çox gündəmə gətirilir. Bu yalnız yeni texniki vasitələr deyil, eyni zamanda yeni tədris formaları və metodları, təlim prosesinə yeni bir yanaşmadır. Xarici dillərin əsas məqsədi məktəblilərin ünsiyyət mədəniyyətinin formalaşdırılması və inkişafı xarici dilin praktiki mənimsənilməsinin öyrədilməsidir.

İngilis dilinin ali məktəb kursunun ən çətin mövzularından biri olduğu məlumdur. Buna görə əsas vəzifələrdən biri maraq oyandırmaq, eyni zamanda mövzu üçün motivasiyanı artırmaq, tələbələrdə yaradıcı və intellektual qüvvələri oyatmaq istəyi hesab olunur. Müasir dünyada ingilis dilini bilmək bir növ dünyaya

açılmış pəncərədir. Bu beynəlxalq ünsiyyət dilini bilməklə yeni fürsətlərin köməyi ilə hədəflərinizə çata bilərsiniz. Müəllimin vəzifəsi hər bir tələbə üçün dilin praktiki mənimsənilməsinə şərait yaratmaq, hər bir tələbənin öz fəaliyyətini, yaradıcılığını nümayiş etdirməsinə imkan verəcək bu cür tədris metodlarını seçmək və eyni zamanda xarici dillərin tədrisi prosesində tələbənin idrak fəaliyyətini artırmaqdır.

Internet bütün dünyada insanlar tərəfindən istifadə olunan əhəmiyyətli bir vasitədir. Internet, nəinki gündəlik həyatımızda, həm də peşə həyatımızda bizə kömək edən müasir dövrün ən faydalı texnologiyasıdır. Təhsildə intenetdən məlumat toplamaq, tədqiqat aparmaq və bu kimi müxtəlif fəaliyyətləri həyata keçirmək üçün geniş istifadə olunur.

İnternet təhsildə çox vacib bir rol oynayır. İnternetdən istifadə tələbələrə təhsil verilməsinə böyük təsir göstərmişdir. Əgər ondan tələbələrin inkişaf səviyyələrinə uyğun olaraq istifadə olunarsa, bu həm müəllimlər, həm də tələbələrlər üçün səmərəli ola bilər. Bu gün internet dünyada hər kəsin üstünlük verdiyi güclü bir vasitəyə çevrilib. İnsanlar internetdən öz maraqlarına uyğun olaraq istifadə edir. Demək olar ki, hər bir sahədə hər kəsin internetə ehtiyacı var. Təhsil sahəsində təşkil edilən imtahanlar, hazırlanan tədris proqramları, çıxarılan nəticələr və s. internetdə əldə edilən materiallar əsasında ərsəyə gətirilir. Hazırki dövrdə hər bir şagirdin, hər bir tələbənin internetə ehtiyacı var. Tələbələr üçün təhsildə internetin əhəmiyyəti onların keçdikləri dərs ilə əlaqəli hər hansısa bir araşdırma aparmaqları və lazımi məlumatları əldə etməkləri ilə xarakterizə olunur. İnternet bir millətin davamlı inkişafının əsaslarından biri olan təhsilin keyfiyyətini artırır. İnternet hər bir tələbəni onlar üçün əlçatan və sərfəli olan təlim videoları və veb təlimləri ilə təmin edir.

Xarici dilin öyrənilməsi tələbələrdə ünsiyyət və kommunikasiya əlaqələrini genişləndirir, dünyaya yenin baxış formalaşdırılmasına zəmin yaradır. Müxtəlif xalqların və dövlətlərin ictimai-siyasi, elmi-mədəni və iqtisadi həyatı haqqında biliklərin əldə olunmasına, xarici ölkələrin müxtəlif sahələrdə qazandığı təcrübəni birbaşa öyrənməyə inkan verir. Xarici dilin öyrənilməsi iş və karyera imkanlarının genişlənməsinə şərait yaradır. Xarici dilə yiyələnməklə gənc mütəxəssislərimiz ölkəmizdə fəaliyyət göstərən onlarla xarici şirkət, qeyri hökümət təşkilatları və eləcə də dünyanın müxtəlif qurumları ilə daha sıx əməkdaşlıq etmək imkanı qazanır. Xarici dil təlimi vasitəsilə tələbələrdə başqa xalqların dil və mədəniyyətinə, milli-mənəvi dəyərlərinə hörmət hissi, tolerantlıq formalaşır. Xarici dilə yiyələnmək tələbələrin humanitar təhsil səviyyəsini yüksəldir, şəxsiyyətin formalaşmasına, daim dəyişən dünyanın tələblərinə uygunlaşmasına imkan yaradır.

Xarici dil tələbələrin linqvistik biliklərini genişləndirir, ünsiyyət mədəniyyətinin formalaşmasında mühüm rol oynayır və nitq inkişafına müsbət təsir göstərir. Xarici dilə mükəmməl yiyələnmiş hər bir gənc xarici dil daşıyıcılarına Azərbaycanı təqdim etmək, respublikamızda baş verən prossesləri dünya ictimaiyyətinə birbaşa çatdırmaq imkanı əldə edir.

Buna görə də hər bir xarici dil müəllimi öz üzərində daimi işləməli və inkişaf etməlidir. Bu isə müəllimdən açıqlıq və zənginlik, hər şeydən məlumatı olmaq, dilçilik seminarlarında, başqa müəllimlərin dərslərində iştirak etmək, öz

həmkarlarının məsləhətlərinə qulaq asmaq və onların təcrübələrindən məharətlə istifadə etməyi tələb edir. Kommunikativ yönümlü müəllimlərdən həddən artıq səbirli olmaq tələb olunur. Müəllimin əsas açarı onun tələbləri ilə daima ünsiyyətdə olması və onların fikirlərinə tərəfdar çıxmağı bacarmasıdır. Bu baxımdan o, tələbənin zəhmətinə qayğı ilə yanaşmalı və onun fikirlərinə şərik olmağı bacarmalıdır.

Kommunikativ təlimin əsaslarını öyrənilən dildə danışmaq təşkil etdiyindən, müəllim bu dildə gözəl danışmağı bacarmalı və bununla tələbələrə misilsiz nümunə olmalıdır.

Ümumtəhsil məktəblərində ingilis dili dərslərində tələbələrin şifahi nitq fəaliyyətinin səmərəli yollarının inkişaf etdirilməsində şifahi nitqin meyarlarının müəyyən edilməsi, müxtəlif metodların tətbiqi kommunikativ bacarıqların formalaşmasına xidmət edir.

Kommunikasiyanın tələbləri nitq fəaliyyətinə nə qədər tez daxil olsa, bu bacarıqlar mümkün qədər vaxtında formalaşa bilər. Bizim üçün mühüm əhəmiyyət kəsb edən fakt ondan ibarətdir ki, təlimdə işlənən metodların səmərəli tətbiqi həm müəllimə, həm də tələbəyə elə bir mühit yarada bilsin ki, onlar danışıq fəaliyyəti zamanı rahat, sərbəst ünsiyyət qura bilsinlər.

Şifahi nitqin formalaşmasında ünsiyyətin qurulması nə qədər çox nəzərə alınmasa da, uyğun kommunikasiya üçün danışma, lüğətin, tələffüzün və qrammatik qaydaların ən mühüm sahə olduğu bir çox ədəbiyyatlarda təqdim olunur. Təlimdə səmərəli ünsiyyət yalnız ilk öncə danışıq fəaliyyətində tətbiq olunmalıdır. Bu sahədə bir sıra kommunikativ metodlar tətbiq edilməyə başlanmışdır.

Danışıq zamanı kommunikativ fəaliyyətlərin real məqsədləri xarici dildə dinləyib – anlama, danışma, oxu və yazı bacarıqlarının formalaşmasına diqqəti yönəldərək, məlumat əldə etmək, nitq baryerlərini aşmaq, özünü təqdimetmə bacarıqları qazanmaq, mədəniyyətləri öyrənmək və cəmiyyətin fəal üzvü olmaqdır. (Moss, D. Ross-Feldman, L. Authors(s) Organizational Affiliation. National Center for ESL Literacy Education. Georgetown university. 2003, s.95-100). Bu fəaliyyətlərə müxtəlif metodlar məcmusu, yanaşmalar, üsul və vasitələr, nitq modelləri, şifahi və yazılı kommunikativ nitq çalışmaları daxildir. Ən son nümunəvi kommunikativ metodlara "Tapşırıqlı təlim metodu" (TBL), TPR- Fiziki hərəkətlərə cavab (Total Physical Response), Çevik dəyişmə metodu (Flipped Learning), İnformasiya boşluqları (İnformation Gap), kompüter əsaslı dilin öyrənilməsi (CALL), mətnlərin dialoqlaşdırılması, oyunlar, komandalarda müzakirə, layihə əsaslı təlim (Project based learning) və s. daxildir.

Danışıq zamanı kommunikativ vərdişlərin hansı komponentlərdən ibarət olmasını bilmək təlimdə çox vacib şərtlərdir. Bu şərtlərə məlumatı ötürən və qəbul edən arasında olan prosesin müxtəlif metodlarla tədris olunması daxildir ki, bu mexanizmlərə yazılı və danışılan sözlər, qeyri-verbal hərəkətlər və s. daxildir.

Kommunikativ nitq fəaliyyətinin komponentlərinin düzgün tətbiq edilməsi baxımından son ədəbiyyatlarda isə dinləyib- anlamanın, danışma fəaliyyətinin tiplərinin müəyyən edilməsi, bədən dilinin, jestin, mimikanın yerli-yerində işlənməsi, oxu və yazının düzgün strategiyalarının işlədilməsi, intonasiya, aydın səs tonu,

inandırıcı ifadə tərzinin olması, lüğətin və qrammatik qaydaların ünsiyyət çərçivəsi daxilində öyrədilməsi əsas götürülür.

Danışıq fəaliyyətinin növlərinin düzgün anlaşılması üçün müəllim və şagirdlərin nitq fəaliyyətinin müxtəlif funksiyalarını anlaması və onun təbiətinin açılması çox vacib şərtlərdir.

İnteraktiv danışıq fəaliyyəti ( İnteractive Speaking) müasir metodların tətbiqində ən çox işlənən və kommunikasiya üçün daha geniş və əlverişli mühit yaradan fəaliyyət növüdür. Qruplarda və kollektivdə, bəzən də cütlükdə interaktiv şəkildə ünsiyyət prosesi yaranır. Tələbələrdə dilin qarşılıqlı təsirdə öyrənilməsində interaktivliyin transaksional məqsədinə çatmasına imkan yaradılmalıdır, yəni onları qarşılıqlı fikir mübadiləsinə cəlb edərək eyni zamanda sosial vərdişlərin formalaşmasına nail olması tələb olunur. İnteraktiv danışıq fəaliyyətində dil praqmatik şəkildə kompleks xarakter daşıyır, bu zaman qısaltmalardan, jarqonlardan və digər sosial konvensiyalardan istifadə olunması təklif olunur. Danışana mane olmağı gizlətmək və öz fikrini bildirmək üçün üzdə ifadə tərzinin danışanın fikrinə münasibət bildirməsi də vacib nüansdır.

Səmərəli kommunikasiya üçün tətbiq olunan metodlar eyni zamanda qeyri-verbal xarakter daşıyır ki, buraya jestin, mimikanın, bədən dilinin yerli yerində nümayişi, ünsiyyət vərdişlərinin, əsasən, əllərin hərəkəti, üz ifadəsinin, mimikanın aydın göstərilməsi daxildir. Səs tonunun düzgün işlənməsi danışıq prosesində müraciətlərin ünvanlanmasında şagirdlərin bu vərdişləri özlərində formalaşdırması çox mühümdür. Məlumatların ötürülməsində onların qarışdırılmaması da əsas şərtlərdən biridir. Müşahidələr zamanı şagirdlərin bəzən məlumatların məzmununu anlamadan sistemsiz ifadə etməsində üz ifadələrinin yersiz işlənməsi daha çox müşahidə olunur.

Bədən formasının mövzunun məzmununa uyğun dinamik formada dəyişilməsi də kommunikasiyanın ən vacib şərtidir. Söhbət zamanı çiyinlərin hərəkəti, əllərin məqsədəuyğun işlədilməsi, göz təmasının düzgün qurulması qarşıdakı tərəfi tam özünə inandırmağa və məlumatın vacibliyinə yönəltməyə imkan yaradır.

Digər tərəfdən, effektiv kommunkasiyada ikinci tərəflə tam razılaşmasan belə, tənqid etməyi, günahlandırmağı, mühakimə etməyi kənara qoyub onun fikirləri, düşüncələri ilə razılaşmalısan. İkinci faktor isə, danışanla əlaqəni kəsməmək, danışanın fikrinə qısa parafrazlarla cavab vermək də əsas şərtdir. Məsələn, danışanın nitqini tam anladığını nümayiş etdirmək üçün uyğun təkliflərdən istifadə etmək lazımdır.

Fikrimcə, tələbələrin danışmadan öncə lazımi dinləyib-anlama bacarıqlarını formalaşdırmaq uyğun tapşırıq nümunələrinin və fəaliyyətlərinin seçilməsini müəyyənləşdirən maraqlı və diferensial əlamətlərə malik fəaliyyətlərin tətbiqindən ibarətdir.

Tələbələrin kommunikasiya zamanı təmkinli, vicdanlı, həssas, səmimi, hörmətcil və tolerant olması vacib faktorlardandır.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2024*
*Səh. 207-216*

Səmərəli dinləyib-anlama, intonasiya, lüğətin inkişafına daha çox imkan yaratmaq tələbələrin kommunikasiyaya tam hazır olmasını şərtləndirir. Bu şərtlərin tam təminatı nitq fəaliyyətinin komponentlərinin yerinə yertirilməsinə əsaslanır.

İnformasiya boşluqları (İnformation Gap) kommunikativ danışıq fəaliyyətinin ən uğurlu vasitələrindən biridir və təlim prosesində tələbələrin ən çox rastlaşdıqları problemi həll etməyə imkan yaradır. Informasiya boşluqları həm metodoloji, eyni zamanda fiziolji baxımdan faydalı bir fəaliyyət növüdür. Bu metodun tətbiqi zamanı informasiyalar iki müxtəlif vərəqdə müəyyən boşluqlarla verilir. Tələbə A-da olan vərəqdə verilmiş boşluq tələbə B-nin vərəqində verilmiş, tələbə B-nin informasiya boşluğu isə tələbə A-nin vərəqində verilmişdir. Bu vasitə tələbələrin hər hansı bir informasiya boşluğunun iki tərəf arasında müzakirə edilərək doldurulmasıdır. Bu metod eyni zamanda tələbələrin dinləyib anlama bacarıqlarını da daha tez formalaşdırır. Boşluqla üzləşən tərəf digər tərəfi diqqətlə dinləyib məlumatını tamamlamalı və onun nitqinin davamını dinləyib dostunun rastlaşdığı boşluğu tez tamamlamalıdır. Hər iki tərəf çox diqqətli olub, məlumatları bölüşdürür və maraqlı kommunikasiya qururlar.

Ənənəvi dialoqlardan fərqli olaraq informasiya boşluqları tələbələri istər-istəməz dialoqa dəvət edir və onlar məntiqi düşünərək suallr qurur və dəqiq cavablandırır.

Söhbət toru (Convetrsation Grids) sinifdə və sinifdənxaric mühitdə daha tez yaradılan kommunikativ fəaliyyət növüdür. İngilis dilində aparılan söhbətlər müəyyən formada əyləncəli olmalıdır, amma elə etmək lazımdır ki, kommunikasiyanın bu struktur dərs modelindən tələbələr maksimum dərəcədə faydalana bilsinlər. Söhbətlər zamanı onlar şəkillər üzrə yeni sözlər öyrənir, nitq etiketlərindən istifadə edərək dialoqlarda fikir mübadiləsi edir, gündəlik ifadə vasitlərini praktikada istifadə edir, müxtəlif mövzuları müzakirə edirlər (summer holidays, free time, language learning, countries and people, etc.)

Şifahi söhbətlər tələbələr arasında kiçikhəcmli, birmərhələli söhbətlərdən daha geniş həcmli söhbətlərə qədər davam etdirilməsini nəzərdə tutur. Müəllim hər hansı bir mövzu ətrafında tələbələri söhbətə cəlb edə bilər. Söhbətlər spontan şəkildə aparılır və interaktivlik yaradır. Söhbət torunu yaratmaq üçün tələbələrə autentik, sərbəst və müəllimin istiqamətindən asılı olmayan fəaliyyətlər təqdim olunur. Tələbələr W/H- suallarından istifadə etməklə sorğu tərtib edir, mövzuya uyğun lüğət seçir və mədəni aspektləri təyin edir.

Strip hekayələr üzərində tələbələrin ardıcıl nitqi formalaşır. Belə hekayələr onlara kəsilmiş vərəqlərdə verilir. Verilmiş vərəqlərin ardıcıl düzülməsi üçün onlar "first", "then", "finally" kimi əlaqələndirici sözlərdən istifadə edərək hekayəni məntiqi ardıcıllığı ilə sıralayır və orijinal variantla yoxlayır. Belə fəaliyyətlər tələbələrin danışıq fəaliyyətində ardıcıl fikir yürütməyi formalaşdırır. Tələbələr tərəfindən bu hərəkətlər təkrarlanaraq, mətnin məzmunu və sözləri nitq prosesində ifadə olunur.

Əsas səmərə odur ki, tələbələr qarşı-qarşıya dinləyib-anlama bacarıqlarını inkişaf etdirmək üçün diqqəti tam hərəkətlərin nümayişinə yönəldir və onun

mənasını ifadə edirlər. Asher bu yanaşmanı “stressdən azad” yanaşma adlandıraraq, sakit mühitdə dilin ən effektiv məhsulu adlandırmışdır. Əsas fəaliyyət əmr formasında olan nitq etiketlərinin cümlələrdə səslənməsi ilə başlayır və burada əsas məqsəd dinləyicinin fəaliyyətinin formalaşmasıdır. TPR metodu mənanın açıqlanmasında diqqətin əsas meyar olduğunu önə çəkir və qrammatik qaydaların induktiv tədrisinə yönəldilir. Bu üsul yaddaşın möhkəmlənməsinə kömək edir və fiziki tərbiyə fənninə inteqrasiya edərək, tələbələrin bütöv şəkildə mövzunu mənimsəməsinə xidmət edir. Onlara təsviri mətnlərin bu şəkildə mənimsədilməsində TPR metodunun böyük əhəmiyyəti var və bu metodun köməyi ilə hekayə və mətnlərin hərəki formada tətbiqinə imkan yaratmaq lazımdır. TPR komanda şəklində həyata keçirilir, tələbələr dairədə, yumorlu şəkildə fikirlərini ifadə edir, danışıq zamanı olan qorxuya tam qalib gəlirlər. (“ The Total Physical Response Approach to Second Language Learning” by James J. Asher. The Modern Language Journal, Vol. 53, No. 1 (Jan., 1969) səh.59, 109)

İngilis dilinin tədrisində multimedia vasitələrindən, dilin müasir kommunikativ texnologiyalarından istifadə olunması ən yeni üsullardandır. Multimedia vasitələri kimi, televiziya, radio, kompüer, video nümunələrindən və eyni zamanda autentik vasitə olan qəzet, jurnal, bədii kitablar, musiqi parçalarından istifadə edərək tələbələri ünsiyyətə daha tez həvəsləndirmək olar. Təlimdə videofilmlərin qısa vaxt ərzində nümayişi zamanı tələbələr tanış olduqları yeni ifadələr, nitq modelərinin müxtəlif situasiyalarda necə işlənməsi, onların tələffüzü, yeni müraciət formaları, jestlər və bədən dilinin işlənməsi ilə yaxından tanış olurlar.

İngilis dilinin auditoriya mühitində öyrənilməsində kommunikativ oyunların rolu daha cəlbedicidir. Oyunlar zamanı tələbələr ünsiyyətə daha gez qoşulur, oyunların müasir pedoqoji yanaşma kimi təlimdə tədrisi və tətbiqi bir çox məqsədlərə xidmət edir. Ilk öncə, oyunlar uğurlu təlim nəticələrinin əldə olunmasına, tələbə maraqlarının nəzərə alınmasına əsaslanaraq, təlimdə maraqlı ünsiyyət mühitini yaradır. Psixoloji baxımdan müxtəlif oyunlarla təlim zamanı tələbələr stresi, daxili dünyasındakı çatışmazlıqları, qorxu və qayğıları unudaraq, sanki kliniki fəaliyyətdə müalicə alırlar. Hətta yaşadığı sıxıntılı hadisələrdən azad olmaq üçün oyun “çıxış yolu” da ola bilər. Müasir oyun texnologiyaları təlim prosesində müəllimin və tələbələrin fəallığını tələb edir. Müasir oyunların köməkliyi ilə təlimin həm inkişafetdirici, həm də tərbiyələndirici funksiyaları təlimin keyfiyyətininin yüksəldilməsinə səbəb olur.

Azərbaycanlı dilçi alim D.İsmayılova qeyd edir ki, müxtəlif məqsədlərə əsaslanan kommunikativ oyun növləri vardır ki, onlar oyunun tələbələrə müsbət təsir göstərərək öz sosial inkişaflarını sürətləndirirlər.(ИсмаиловаД. Общетеоретические аспекты культуроведческого обшения иноязычной коммуникативной практики учащихся//Иностранные языки в Азербайджане, 2007, № 1. səh.135-140) Tələbələr oyunun köməyi ilə özlərinə dost qazanır, bir-birlərinin xarakterlərinə daha yaxından bələd olur, sevdikləri və ya sevmədikləri xüsusiyyətlıəri öyrənirlər. Başqalarına hörmət etmək, səbirli olmaq, stressdən yaxa qurtarmaq, problemləri həll etmək və liderlik kimi xüsusiyyətləri də oyun vasitəsilə əldə edirlər.

Şifahi nitqin formalaşmasında ünsiyyətin qurulması üçün innovativ metodların tətbiqi çox vacib şərtdir. Təlimdə səmərəli ünsiyyətin yaradılmasında yalnız ilk öncə danışıq fəaliyyəti tətbiq olunlmalıdır. Uyğun kommunikasiya üçün, danışma, lüğətin, tələffüzün və qrammatik qaydaların düzgün formalaşması üçün fəaliyyət növü və üsullar düzgün seçilməli və tətbiq olunmalıdır. Bu baxımdan tədrisdə işlədilən kommunikativ metodlar nitqdə dilin dəqiq, səlis xarakterdən çox, axıcı və rabitəli xarakterə malik olmasına imkan yaradır. Tələbələr danışıq zamanı fəliyyətin növündən asılı olaraq, onun hansı məqsədlə işlədiyini düzgün ifadə etməyi bacarmalıdır.

**Ədəbiyyat siyahısı**

1. Kitabi- Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: “Öndər” nəşriyyatı, 2004, 376s.
2. İsmayılova D. Everyday Dialogues. Bakı: Mütərcim, 2001.
3. Исмаилова Д. Общетеоретические аспекты культуроведческого обшения иноязычной коммуникативной практики учащихся// Иностранные языки в Азербайджане, 2007, № 1.
4. “ The Total Physical Response Approach to Second Language Learning” by James J. Asher. The Modern Language Journal, Vol. 53, No. 1 (Jan., 1969)
5. Moss, D. Ross-Feldman, L. Authors(s) Organizational Affiliation. National Center for ESL Literacy Education. Georgetown university. 2003.

**ОМАРОВА ГЮЛЬСАРАН ГАМЛЕТ**

## РЕЗЮМЕ

## ПРИМЕНЕНИЕ КОММУНИКАТИВНЫХ МЕТОДОВ В ОБУЧЕНИИ ИНОСТРАННЫМ ЯЗЫКАМ

Общение играет важную роль в нашей жизни как движущая сила развития как на индивидуальном, так и на групповом уровне. Когда мы говорим об общении, первая мысль, которая приходит нам в голову, связана с языком, который мы используем. Слова, речь и язык играют очень важную роль в процессе общения и являются исключительно человеческим явлением. Общение – это взаимодействие людей, направленное на координацию и объединение их усилий с целью выяснения своего отношения и достижения общего результата (1, 116). Процесс общения выполняет три функции: коммуникативную, интерактивную, перцептивную. Указанные функции реализуются двумя способами. Первый называется речевым поведением, которое реализуется с помощью слов, языка и речи. Второй называется невербальным поведением и включает в себя движения рук человека; тембр голоса и другие голосовые характеристики, включая скорость речи, частоту, интонацию, паузу; движения тела, позу тела; черты лица, стиль одежды и т. д.

Область коммуникативной и быстрой разговорной деятельности на английском языке, преобладающем как глобальный язык, в последнее время является наиболее изучаемый областью в методической литературе, и наблюдается возрастающий интерес к проблемам, возникающим в этой области. При анализе формирования коммуникативных навыков при обучении английскому языку с методической точки зрения также видно, что существует множество факторов и методических недостатков. Разговорная деятельность считается одним из основных требований общеобразовательных учреждений как основной и важный компонент общения.

В данной статье рассматривается применение метода коммуникативного подхода в обучении иностранным языкам, особенно английскому языку, в современную эпоху, а также анализируются и обосновываются пути эффективной организации этого подхода.

**Ключевые слова: инновационный, коммуникативный, глобальная компьютерная сеть, сертификация, паутина, толерантность, интерактивный, перцептивный.**

**OMAROVA GULSARAN HAMLET**

**SUMMARY**

**APPLICATION OF COMMUNICATIVE METHODS IN TEACHING FOREIGN LANGUAGES**

Communication plays an important role in our live as a driving force for development both at the individual and group level. When we talk about communication, the first thought that comes to our mind is related to the language we use. Word, speech and language play a very important role in the process of communication and are an exclusively human phenomenon. Communication is the interaction of people aimed at coordinating and combining their efforts in order to clarify their attitude and achieve a common result (1, 116). The communication process performs three functions: communicative, interactive, perceptive. The mentioned functions are implemented in two ways. The first is called verbal behavior, which is realized by using words, language and speech. The second is called non-verbal behavior, and it includes human hand movements; voice tone and other vocal characteristics, including speech speed, frequency, intonation, pause; body movements, body posture; facial features, style of clothing and etc.

The field of communicative and fast conversational activity in English, which prevails as a global language, has been the most studied area in the methodical literature recently, and it is observed that the interest in the problems arising in this field is increasing. When analyzing the formation of communicative skills in English language teaching from a methodological point of view, it is also seen that there are many factors and methodological shortcomings. Conversational activity is

considered one of the main requirements of general education institutions as the main and important component of communication.

In this article, the application of the communicative approach method in the teaching of foreign languages, especially the English language, has been discussed in the modern era, and the investigation of ways of effective organization of this approach has been analyzed and substantiated.

**Key words: innovative, communicative, global computer network, certification, web, tolerance, interactive, perceptive.**

**Redaksiyaya daxil olma tarixi: 15.02.2024**
**Çapa qəbul olunma tarixi: 24.02.2024**
**Rəyçi: Fil.f.d. dos. Fərmanova Aynur Ramiz qızı.**
**tərəfindən çapa tövsiyə olunmuşdur**